

LAYİHƏ

Regionlardakı müəssisələrin dünya bazarlarına çıxışı üçün alternativ yol

SƏH. 3



VERGİ

Vergilər Nazirliyində kollegiya iclası keçirilmişdir

SƏH. 6

İQTİSADİYYAT qəzeti 15 il

iqtisadi qüdrətimiz naminə!

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

№ 49 (893)
11 - 17 dekabr
2015-ci il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet

Qiyməti razılaşma yolu ilə

Qəzet 1999-cu ildən çıxır

## Azərbaycan Çin ilə bütün sahələrdə əməkdaşlığı genişləndirmək niyyətindədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-9-da Çin Xalq Respublikasında dövlət səfərində olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində dekabrın 9-da Sian şəhərindəki Terrakota Ordusu (yeraltı heykəllər ordusu) Muzeyi ilə tanış olub.

Sian şəhəri Çinin mərkəzində yerləşən Şaansi əyalətinə mənsubdur. Qədim İpək Yolunun üzərində yerləşən bu əyalət zəngin tarixi və mədəniyyəti ilə diqqəti cəlb edir. Bu əyalət Çinin dörd qədim paytaxtından biridir.

Dövlətimizin başçısına əvvəlcə muzeyin yerləşdiyi ərazinin planı barədə məlumat verilmişdir.

Bu muzey Çin tarixini, həmçinin o dövrə məxsus texnologiya, incəsənət və mədəniyyəti öyrənmək və tədqiq etmək üçün əvəzsiz mənbədir. Prezident İlham Əliyev terrakota ordusunun müxtəlif rütbələrdə olan hərbçilərinin heykəllərinə də baxmışdır. İl ərzində bu muzeyə dünyanın müxtəlif yerlərindən minlərlə turist gəlir. Onlar dünya tarixinin və mədəniyyətinin bu əvəzolunmaz incisi ilə tanış olmaq, onu öz gözləri ilə görmək istəyirlər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 9-da Çinin Şaansi vilayətinin qubernatoru Lou Çincyan ilə görüşü olub.

Bu səfərin ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına, eyni zamanda, Şaansi vilayətinin məhsulları ilə Azərbaycanın daha yaxından tanış olmasına imkan yaradacağını deyən Prezident İlham Əliyev respublikamızın Çin ilə bütün sahələrdə əməkdaşlığı genişləndirmək istəyində olduğunu bildirmişdir. Dövlətimizin başçısı demişdir ki, Azərbaycanda son illərdə sürətli iqtisadi artım müşahidə olunur və ölkəmiz uğurla inkişaf edir. Bu da ölkələrimiz arasında fəal qarşılıqlı əməkdaşlığın həyata keçirilməsinə kömək edir.

* * *

Çin Xalq Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 9-da Sian şəhərindən paytaxt Pekinə gəlmişdir.

SƏH. 2

## SOCAR: Axtarışlar itkin düşmüş sonuncu işçi tapılana kimi aparılacaq




Hazırda "Günəşli" yatağında baş verən yanğının söndürülməsinə 5 yanğınsöndürmə gəmisi cəlb olunub. Trend-in məlumatına görə, bu barədə "Azneft" İstehsalat Birliyinin baş direktoru Daşqın İsgəndərov bu gün yanğınla bağlı keçirilən brifinqdə deyib.

O, qeyd edib ki, əlverişsiz hava şəraitinə baxmayaraq, yanğının söndürülməsi işləri davam etdirilir.

D.İsgəndərov bildirib ki, 4 yanan qaz quyusu var: "İlk növbədə, yanğın baş verən 10-cu özülü su ilə təchiz etməyə çalışırıq ki, yanğının söndürülməsi üçün bu su mənbəyindən istifadə edək".

O, əlavə edib ki, itkin düşmüş neftçilərin axtarışları da davam etdirilir: "Çalışırıq ki, itkin düşmüş neftçilərin hamısını tapıb ailələrinə təhvil verək".

* * *

Axtarışlar davam etdirilir. Proqnozlara görə, havanın temperaturu dəyişəcək, küləyin sürəti artacaq. Küləyin sürətindən asılı olaraq, hava şəraiti imkan verdiyi müddətədək itkin düşmüş 26 işçinin axtarışları davam etdiriləcək və sonuncu işçi tapılana kimi bu axtarışlar aparılacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə dekabrın 8-də saat 20-də keçirilən mətbuat konfransında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) mətbuat xidmətinin rəhbəri Nizaməddin Quliyev məlumat verib. O deyib: "Yanğının söndürülməsi istiqamətində işlər davam etdirilir. Özüldə elektrik enerjisinin və rabitənin bərpası ilə bağlı bu gün müəyyən addımlar atılıb".

SOCAR-ın "Azneft" İstehsalat Birliyinin baş mühəndisi Balamirzə Ağarəhimov isə qeyd edib ki, yanğının söndürülməsinə cəlb olunan "Boots&Coots" şirkətinin mütəxəssisləri 10 nömrəli özüldə vəziyyətlə tanış olublar. Hazırda onlar 5 nömrəli özüldə müzakirələri davam etdirirlər. Onlar öz texnikalarını sahəyə cəlb edərək yanğının söndürülməsinə kömək edəcəklər.

Onun sözlərinə görə, helikopterlərlə axtarış işlərinin aparılması hava şəraitindən asılı olacaq. Lakin 2 "Vixr-9" və 1 "Topaz" yanğınsöndürən gəmiləri işlərini davam etdirəcəklər.

* * *

"Günəşli" yatağında baş verən yanğın nəticəsində xəsarət alan neftçilərin gələcəkdə fəaliyyət göstərib-göstərməyəcəkləri məsələsinə aydınlıq gətirilib.

Trend-in məlumatına görə, SOCAR-ın vitse-prezidenti Xalik Məmmədov hadisə ilə bağlı keçirilən brifinqdə bildirib ki, hazırda xəsarət alan neftçilərin müalicələri davam etdirilir.

Onun sözlərinə görə, müalicə başa çatdıqdan sonra xəsarət alan neftçilərin sağlamlığı qiymətləndiriləcək: "Əgər onların sağlamlığı işləməyə imkan versə, öz işlərinə qayıdacaqlar. Əlil olmuş neftçilərin əlillik dərəcəsi isə müvafiq dövlət qurumları tərəfindən müəyyən olunacaq. Bu halda onlar həm əlillik dərəcəsinə görə müavinət alacaq, həm də onların sığortası var, buna görə də onlara müavinətlər veriləcək".

**Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin rəhbərliyi və kollektivi "Günəşli" neft yatağındakı 10 saylı dəniz özülündə insanların faciəli vəfatından kədərləndiklərini bildirir, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.**

**ALLAH RƏHMƏT ELƏSİN**

**Bioloji Təbabət Klinikası**
**Almaniya - Azərbaycan**




**Üstünlükləri:**
- Özünübərpa və müdafiə mexanizmlərinin pozulmuş funksiyalarının bərpası
- Xəstəliyin deyil xəstənin müalicəsi
- Yalnız təbii tərkibli potensiyalaşdırılmış dərman preparatlarından istifadə

**MÜAYİNƏLƏR:**
- Avtomatlaşdırılmış müasir laboratoriya vasitəsilə biokimyəvi, hematoloji, kliniki analizlər
- Çoxfunksiyalı, məsafədən idarə olunan rəqəmsal rentgen vasitəsilə onurğa, sümük- oynaq xəstəliklərinin müayinəsi
- Qaranlıq sahəli mikroskop vasitəsilə qanın funksional və keyfiyyət analizi
- 4D rejimli USM aparatı vasitəsilə ginekoloji, baş- beyin və qarın boşluğunun müayinəsi
- KT (kompüter tomoqrafiya)
- İkienerjili-rentgenoloji densitometr vasitəsilə sümük-oynaq xəstəliklərinin müayinəsi (osteoporozun erkən aşkarlanması)
- Videoendoskopiya (bronxoskopiya, qastroskopiya, kolonoskopiya, kolposkopiya)
- AFGEN Genetik diaqnostika mərkəzi (Türkiyənin Ege Universitetinin professoru Afiq bərdəlinin rəhbərliyi ilə fəaliyyət göstərən müasir laboratoriyada bütün növ genetik xəstəliklərin dəqiq analizləri aparılır)
- BRD (biorezonans diaqnostika)- vasitəsilə virus və qurd xəstəliklərinin müayinəsi və müalicəsi
- EEQ -beyin hüceyrələrinin aktivliyi öyrənilir
- PZR laboratoriya aparatı vasitəsilə dəqiq və keyfiyyətli analizlər
- Elektromioqrafiya – periferik sinir sistemi xəstəliklərinin diaqnostikası və oxşar xəstəliklərlə differensial diaqnostikası aparılır.

**MÜALİCƏLƏR:**
- Plazmaferez
- Homeosiniatriya
- Ozonoterapiya
- Hidrokolonoterapiya
- Drenaj terapiya
- İynəbatırma (akupunktura)
- Tibbi kosmetologiya
- Şərq təbabəti ilə müasir təbabətin sintezi Biopunktura
- Osteopatiya
- Manual terapiya
- Autohemoterapiya
- Hirudoterapiya

Müasir aparatura ilə təchiz olunmuş müasir fizioterapiya şöbəsində ESWT, WINPLATE, Lazer, Maqnit apparatlarıyla elektroterapiya, Reabilitasiya, Massaj, Kinezioterapiya müalicələri aparılır.

"BiolojiTəbabət"klinikası
**Ünvan:** 3-cü mkr. Pişəvari küç., 110
("Memar Əcəmi" metro stansiyasının yaxınlığı)
Telefon: (012) / (070) (050) / (055) 430 89 89
e-mail:bioklinik@biolojitababat.az

## Azərbaycanda gömrük bəyannaməsi üzrə e-imza tətbiq ediləcək




"Elektron Hökumət" portalının operatorunun və Dövlət Gömrük Komitəsinin səlahiyyətli nümayəndələri ilə görüş keçirilib.

Trend Məlumat Hesablama Mərkəzinə istinadən məlumat verir ki, "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli qərarında əks olunan tapşırıqların təmin olunması məqsədilə baş tutan görüşdə gömrük bəyannamələrinin elektron təşkili məsələsi müzakirə edilib.

Belə ki, gömrük sərhədlərindən keçirilən malın bəyan edilməsi prosesinin elektron təşkilində mühüm nüans elektron bəyannamənin vətəndaş tərəfindən imzalanmasıdır. Bu gün gömrük sərhədlərində bu əməliyyat ənənəvi üsulla yəni mal sahibinin kağız üzərində formanı doldurararaq imzalaması ilə aparılır. Təbii ki, bu proses istər mal sahibi istərsə də səlahiyyətli şəxslərin işinin operativliyinə təsir göstərir.

SƏH. 2

# Azərbaycan Çin ilə bütün sahələrdə əməkdaşlığı genişləndirmək niyyətindədir

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində dekabrın 10-da Pekində Paytaxt Muzeyi ilə tanış olub.

Dövlətimizin başçısına məlumat verilmişdir ki, Paytaxt Muzeyi Pekində incəsənət mərkəzi kimi də məşhurdur. Çinin qədim tarixinin, mədəniyyətinin nümayiş etdirildiyi mühüm mərkəzlərdən olan bu muzey 1981-ci ildə yaradılıb və hazırda yerləşdiyi binaya 2006-cı ildə köçürülüb. Paytaxt Muzeyinin memarlıq-dizayn konsepsiyası insan və mədəniyyət irslərinin cəmiyyətə xidmət etməsinə əsaslanır, keçmişin və indiki dövrün, tarixin və müasirliyin, incəsənətin və təbiətin ahəngləşdirilmiş inteqrasiyasını əks etdirir.

Muzeydə üç əsas bölmə var. Burada sərgilənən eksponatlar əsasən keçmiş dövrün kolleksiyalarına aiddir. Bütün sərgilərdə tarixi irsə aid ümumilikdə 5622 eksponat nümayiş etdirilir. Muzeyin zalları ən müasir texnologiya ilə təchiz edilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da “Huawei” şirkətinin Pekindəki Sərgi Mərkəzində olub.

Dövlətimizin başçısına məlumat verilmişdir ki, bu mərkəz yüksək səviyyəli strateji dialoq məkanıdır. Burada “Huawei”in gələcək meyilləri, çağırışları və strategiyaları barədə müştərilərə geniş məlumat verilir, onların maraqlarına uyğun olaraq həll yolları izah edilir.

Mərkəzdə dörd sərgi bölməsi var. Bu bölmələrdə gələcək strateji danışıqlar, rəqəmsal fərd, rəqəmsal ev, çevik rəqəmsal biznes, mərkəzi əməliyyatlar təcrübəsi, informasiya texnologiyaları infrastrukturu, rəqəmsal müəssisə və innovasiyalar barədə məlumat verilir. Bundan əlavə, “Huawei”in 2020-ci il üçün strategiyaları barədə də mərkəzdə ətraflı informasiya təqdim olunur.

Burada “Huawei”in Azərbaycandakı nümayəndəliyinin əməkdaşları ilə canlı bağlantı yaradılmışdır.

Dövlətimizin başçısı Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına çox böyük diqqət yetirildiyini demiş və yaxşı nəticələr əldə olunduğunu bildirmişdir. O, vurğulamışdır ki, “Huawei” şirkətini Bakıda təmsil edən çox gənc komanda var. Şirkətin Azərbaycan nümayəndəliyində həm yerli, həm də Çin mütəxəssisləri çalışır və onlar xalqlarımız arasında dostluq münasibətlərini daha da möhkəmləndirirlər.

Şirkətin Azərbaycan nümayəndəliyinin əməkdaşları dövlətimizin başçısına ölkəmizdəki fəaliyyətləri və həyata keçirdikləri layihələr barədə məlumat vermişlər.

Qeyd edək ki, “Huawei” Çində ən inkişaf etmiş böyük şirkətlərdən biridir. 1978-ci ildə yaradılan “Huawei” şirkətinin həlləri və məhsullarına naqilsiz, baza və nəqliyyat şəbəkələri avadanlıqları, şəbəkə cihazları, optik cihazlar, marşrutizatorlar, şəbəkə kommutatorları, tətbiqi proqramlar, aparat təminatı, terminallar və sair daxildir. Şirkət ildən-ilə uğurlarını artırır. Dünyada telekommunikasiya sahəsindəki yenilikləri fəaliyyətində tətbiq edən və bu sahəyə



xüsusi töhfələrini verən “Huawei” 2006-cı ildə 3G daxil olmaqla yeni nəsil şəbəkələri seqmenti üzrə artım nümayiş etdirib. Məhz buna görə də “Huawei” dünyada telekommunikasiya avadanlıqları istehsal edən ən böyük şirkət hesab olunur. İndi şirkətin müxtəlif ölkələrdə 20 elmi-tədqiqat mərkəzi fəaliyyət göstərir. “Huawei”in 170 mindən artıq əməkdaşı var. Onlardan 76 mini tədqiqatla məşğuldur. Şirkətin dünyada böyük populyarlığa malik olan məhsul və xidmətləri 140-dan çox ölkədə tətbiq edilir. Bu şirkət hazırda dünyanın 50 ən böyük telekommunikasiya operatorlarından 45-nə xidmət göstərir.

“Huawei” dünyada sosial layihələri ilə də məşhurdur. Şirkət müxtəlif ölkələrdə bir çox qurumlarla bağlı sosial layihələrin icrasında yaxından iştirak edib. “Huawei” bir çox transmilli şirkətlərə təhlükəsizlik xidmətləri də göstərir. Bir sözlə, “Huawei”in məhsulları böyük maraqla qarşılanır və bu məhsullara dünya bazarında böyük tələbat var.

# Azərbaycanda gömrük bəyannaməsi üzrə e-imza tətbiq ediləcək

*(əvvəli 1-ci səhifədə)*

Müzakirələr zamanı gömrük bəyannaməsinin elektron doldurulması prosesində istifadəçi kimliyinin portal üzərindən FİN-ə uyğun tanınması və vətəndaşın şəxsi elektron imza kartı vasitəsilə təsdiqlənməsi şəffaflıq və istifadəçi məmnuniyyəti nöqtey-nəzərindən uyğun görülüb.

Görüş zamanı elektron bəyannamənin mal sahibi tərəfindən e-imza vasitəsilə təsdiqlənməsi üzrə bütün təfərrüatlar müzakirə edilib, bu servisin portal üzərindən təmin olunması üçün tələb olunan texniki-proqram şərtləri səsləndirilib.

Toplantının gündəliyində dayanan digər məsələ isə Gömrük Sertifikat Xidməti Mərkəzinin akkreditə olunmasıdır. Bu məsələ ilə əlaqədar MSXM-in müdiri ASAN imza və Mərkəzi Bankın akkreditə olunma təcrübəsi barədə məlumat verib, mövcud SXM-in saxlanılması ilə akkreditə olunmanın mümkünlüyü şərh edilib. Bu təcrübə informasiya təhlükəsizliyinə zəmanət verdiyi kimi, həmçinin mərkəzin yenidən qurulmasını tələb etmir.

Toplantının yekununda Gömrük Komitəsinin nümayəndəsi Gömrük SXM-nin akkreditə olunması ilə əlaqədar tələb olunan texniki detallar, həmçinin qanunvericiliklə tələb olunan sənədlərlə bağlı ətraflı məlumatlandırılıb.

KİVDF

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” layihəsi çərçivəsində çap olunub.*

# Regionlardakı müəssisələrin dünya bazarlarına çıxışı üçün alternativ yol

**Son 10 ildə Azərbaycanda dövlət proqramlarının icrası nəticəsində regionların siması dəyişmiş, yeni istehsal müəssisələri yaradılmışdır. İndi yeni yaradılmış müəssisələr bir çox istiqamətdə daxili tələbatı ödəyirlər. Eyni zamanda, regionlarda fəaliyyət göstərən müəssisələrin yüksək keyfiyyətli məhsul istehsal etmələri ixraca da imkan verir.**

Neftin qiymətinin aşağı düşməsilə yaranmış yeni iqtisadi şəraitdə Azərbaycan iqtisadiyyatının daha da şaxələndirilməsi, qeyri-neft sektorunun ixracının artırılması böyük əhəmiyyət daşıyır. Lakin ixracın artırılması asan məsələ hesab edilməməlidir. İstehsalın və alıcının olması həmişə ixracın reallaşacağı demək deyil. İxracın baş tutması üçün bir çox şərtlər, o cümlədən ixracın alternativ maliyyələşdirilməsi və zəmanət xidmətləri mövcud olmalıdır. Faktorinq bu baxımdan digər ölkələrdə olduğu kimi, Azərbaycanın ixracına təkan verə bilər.

**Bu il Azərbaycandan ilk dəfə “PAŞA Bank” ASC Beynəlxalq Faktorlar Assosiasiyasına (Factors Chain International – FCI) üzv olub. Beynəlxalq ticarətdə faktorinqin qaydalarını müəyyənləşdirən bu assosiasiyanın 74 ölkədən 270-dən çox üzvü var. Bəs, PAŞA Bankın Beynəlxalq Faktorlar Şəbəkəsinə üzv olması Azərbaycan ixracatçılarına hansı imkanlar vəd edir? Ümumiyyətlə, faktorinq və ixrac faktorinqi nədir? Şirkətlər faktorinqdən necə istifadə edə bilərlər? Bu suallar ətrafında PAŞA Bank ASC-nin Baş Kommersiya İnzibatçısı Melih Mengü ilə söhbətləşdik.**

## “PULU VER, MALI SABAH GÖNDƏRƏCƏM” QAYDASI YOXDUR

Melih Mengü faktorinq haqqında məlumat verərək bildirdi ki, ixrac kreditlərindən və akkreditivlərdən daha sərfəli olan faktorinq, borcun maliyyələşdirildiyi və ya zəmanət verildiyi bir xidmətdir:

**“Bu gün ticarətdə, xüsusilə, beynəlxalq ticarətdə nağd satış, demək olar ki, yox səviyyəsindədir. “Pulu ver, malı sabah göndərəcəm”** deyilən bir şey yoxdur. Çünki alınan bir mal ya başqa bir məhsulu istehsal etmək üçün yarımfabrikat olaraq istifadə edilir, ya da o malı alan şəxs həmin malı bir başqasına nisyə satıb pulunu bir müddət sonra əldə edir.

Ticarət həyatında satıcı malını dərhal nağd və zəmanətli satmaq istəyir, alıcının tələbi isə nağdsız, bir müddət sonra və hər hansı bir təminat vermədən alış etməkdir. Buna görə satışın reallaşması çətinləşir. Belə bir çətinliyi aradan qaldırmaq üçün faktorinq adlandırılan maliyyə xidməti ortaya çıxıb. Faktorinq xüsusilə, beynəlxalq ticarətdə, hər iki tərəfin – alıcının və satıcının da istəyinin reallaşdığı tək satış şəklidir.

Faktorinq satıcının (istehsalçının) mal və ya xidmət satışından yaranmış və ya yaranacaq alacaqlarına görə, ona zəmanət və ödəmə xidmətlərinin təqdim edildiyi bir maliyyə alətidir. Adətən faktorinqdə 3 tərəf olur: satıcı, alıcı və faktor. Satışı maliyyələşdirən faktor müstəqil faktorinq şirkəti və ya faktorinq lisenziyası olan bank da ola bilər. İxrac faktorinqində isə 4 tərəf iştirak edir. Bu zaman 4-cü tərəf kimi alıcının faktoru çıxış edir.

Belə deyək, bir satıcı malı və xidməti alıcıya satır və qarşılığında hesab-fakturasını tərtib edir. Bundan sonra, satıcı aralarındakı müqaviləyə əsasən razılaşdırılmış müddət ərzində mal və ya xidmətin dəyərinin ödənilməsini gözləyir.



**Burada iki məsələ var: ya satıcı satdığı malın pulunu dərhal nağd almaq istəyir, ya da alıcını tanımadığından satdığı malın pulunu onun gecikdirə biləcəyindən ehtiyat edir. Tutaq ki, müqavilədə alıcının malın pulunu 90 gündən sonra ödəyəcəyi göstərilib. Amma pul 90 gün sonra, hətta daha sonra da ödənilməyə bilər. Şirkətinizə olan borcların ödənilməməsi gəlir və mənfəətin azalmasına, nəticədə borclarınızın vaxtında ödənilməməsinə səbəb olar və bu da şirkətin etibarına pis təsir göstərər.** Belə halları aradan qaldırmaq üçün faktorinq xidməti yaradılıb. Satıcı istəyərsə, pulun ödəniləcəyi dövrü qısalda, hətta bir gün ərzində malın pulunu ala bilər. Əgər satıcı malın pulunu dərhal əldə etmək istəyirsə, bunun üçün faktora müraciət etməlidir. Satıcı hesab-fakturanı faktora və ya bu xidməti göstərən banka təqdim edir. Bank da malın dəyərinin (alıcının borcunun) bir nisbətini, deyək ki, ən azı 80%-ni satıcıya ilkin ödəniş kimi ödəyir və alıcıya borcu faktora ödəyəcəyi barədə məlumat verilir. Satıcı qalan hissəni isə vaxtı çatdıqda, yəni alıcı borcunu tam şəkildə faktora ödədikdən sonra alır. Bu zaman qalan 20%-dən faktor öz xidmət haqlarını çıxır.

## “AZƏRBAYCAN İXRACATÇILARI ÜÇÜN İKİ ÇƏTİNLİK VAR”

Melih Mengü, “Faktorinqdən beynəlxalq ticarətdə geniş istifadə olunur”, - deyərək sözlərinə belə davam edir:

“Məsələn, Azərbaycandan bir ixracatçı ABŞ-dakı bir idxalatçıya mal satmaq istəyir. Amma Rusiyadakı idxalatçı deyir ki, “mən malın pulunu 90 gün sonra ödəyəcəm”. Azərbaycandakı ixracatçı üçün 2 problem var. Birincisi, ixracatçının 90 gündən tez malın pulunu almasına ehtiyacı var. Ola bilsin ki, ixracatçının yerli bazardan aldığı bir şeylərə görə pulunu 5-10 gün ərzində ödəməsi lazımdır. Amma Rusiyadakı idxalatçı, “pulu 90 gündən tez sənə ödəyə bilmərəm. Mənə mal satmaq istəyirsənsə, 90 gün gözləmək məcburiyyətindəsən” deyir. Birincisi ixracatçı bu problemi həll etməlidir.

## “PULUN GERİ ÖDƏNİLMƏMƏSİ RİSKİ VAR”

Azərbaycan ixracatçısının ikinci çətinliyi, vaxtı çatdıqda idxalatçının pulu ödəməməsi riskidir. Çünki bunun zəmanəti yoxdur. O, xarici idxalçını yaxşı tanımaya bilər. Əgər ixracatçı idxalatçıdan bank zəmanəti istəyərsə, bu da beynəlxalq ticarətdə xüsusi bir haldır. Bu zaman idxalatçı da, “əgər bank zəmanəti istəyirsənsə, mən malı başqasından alacam” deyə bilər. Bunun üçün burada bir mexanizmə ehtiyac vardı. Bu mexanizmi yaratmaq üçün 1968-ci ildə Beynəlxalq Faktorlar Şəbəkəsi adlı assosiasiya yaradılmışdır. Çox ölkədən faktorinq şirkətləri və banklar bu şəbəkənin üzvləridir. PAŞA Bank Azərbaycandan şəbəkəyə üzv olan ilk və yeganə faktordur. Bu şəbəkə üzv faktor şirkətlərini və bankları bir-biri ilə əlaqələndirir. Çünki hər bir faktor ölkəsindəki idxalçıları və ya ixracçıları yaxşı tanıyır. Azərbaycandakı ixracatçı və faktor xaricdəki idxalatçını yaxşı tanımaya bilər. İdxalatçı Rusiyadan deyil, tutaq ki, Venesuelladan, Taylanddan da ola bilər. Mal ixrac edən Azərbaycan şirkəti Venesuelladakı şirkəti necə tanısın?! Buna görə bizim yanımıza gəlir. Bəs, biz Venesuelladakı şirkəti necə tanıyaq?! Arada bir mexanizmə ehtiyac var. Ona görə bu şəbəkəyə üzv olduq ki, bu faktorlar şəbəkəsi ilə işləyək.

Mexanizmə görə, idxalatçının və ixracatçının faktorları əməliyyata cəlb olunur. Məsələn, Azərbaycandakı ixracatçı Venesuelladakı alıcısını tanımadığı və ona nisyə mal satmaqdan ehtiyat etdiyi üçün ölkəsindəki faktorinq şirkətinə, tutaq ki, PAŞA Banka müraciət edir. PAŞA Bank da Venesuelladakı alıcını tanımır. Biz Venesuelladakı şirkətin (idxalçının) aldığı malın pulunu ödəyib-ödəməyəcəyini bilmirik. Buna görə, onun borcunu zəmanət olmadan satıcıya ödəyə, ya da borcun ödənilib-ödənməyəcəyinə dair zəmanət verə bilmərik. Bunun üçün idxalatçının ölkəsindəki, Beynəlxalq Faktorlar Şəbəkəsinin üzvü olan faktor ilə əlaqə yaradaraq idxalçının ödəməmə riskini üzərinə götürüb-götürməyə biləcəyini soruşuruq. Əgər idxalçının ölkəsindəki faktor pulun ödənilməməsi riskini üzərinə götürərsə, PAŞA Bank Azərbaycandakı ixracatçı ilə faktorinq müqaviləsi bağlayır. İstəyirsə, ixracatçıya ilkin ödəniş edilir, ya da istəkdən asılı olaraq, vaxtı çatdıqda malın pulu ödənmədiyi halda ixracatçıya pulun ödəniləcəyi barədə zəmanət verilir. Əgər idxalatçı ixracatçının pulunu müqavilədə göstərilən vaxtda ödəməzsə, bu zaman PAŞA Bank ixracatçının pulunu, PAŞA Bankın pulunu isə idxalatçının faktoru ödəyir. Həmin faktorun idxalatçıdan pulu ala bilib-bilməyəcəyi məsələsi ilə biz məşğul olmuruq. Əgər PAŞA Bank ixracatçıya əvvəlcədən ilkin ödəniş vermişdirsə, bu halda da PAŞA Bank pulunu idxalçının faktorundan alır. İdxalçının faktoru da PAŞA Banka ödədiyi pulu vaxtı çatdıqda idxalatçıdan qəbul edir.

Əgər Beynəlxalq Faktorlar Şəbəkəsi olmasaydı, belə bir mexanizm də olmazdı. Faktorlar öz aralarında əlaqəni Beynəlxalq Faktorlar Assosiasiyasının qaydaları və zəmanəti əsasında qururlar.

## İXRACATÇILAR ÜÇÜN BÖYÜK FÜRSƏT

Melih Mengü vurğuladı ki, neftin qiymətinin düşdüyü bir zamanda, faktorinq qeyri-neft sektorunun ixracını təşviq edən bir alət ola bilər.

“PAŞA Bankın Beynəlxalq Faktorlar Şəbəkəsi vasitəsilə təklif etdiyi faktorinq Azərbaycandan xaricə mal satmaq istəyən, amma alıcının ödəməməsi riskini üzərinə götürmək istəməyən ixracatçılar üçün böyük bir fürsətdir. Çünki bu gün dünyada heç kim nağd pul ilə mal sata bilmir. “Pulu göndər, mən sənə sabah malı göndərəcəm” deyilən bir şey yoxdur. PAŞA Bankın faktorinq xidməti sayəsində, istəsələr ixracatçılar satdıqları malın pulunun böyük bir hissəsini nağd əldə edə, ya da nağdsız satış edib pullarının geri ödənilməməsinə qarşı zəmanət əldə edə bilərlər”.

## ÇOXLARI FAKTORİNQ OLMADIĞI ÜÇÜN İXRAC ETMİRLƏR

Melih Mengü dedi ki, başqa mümkün səbəblərlə yanaşı, ixracatçıların geniş ixrac həyata keçirə bilməmələrinin səbəblərindən biri bəlkə də ölkəmizdə Beynəlxalq Faktorlar Şəbəkəsi vasitəsilə faktorinqin mövcud olmaması qeyd oluna bilər:

“Bəlkə çoxları bu səbəbdən dünya bazarlarına çıxa bilmir. “Mən istehsal edəcəm, satıb pulumu necə alacam” deyə fikirləşdiyi üçün ixracat etmək istəmirlər. Biz həmişə, “şirkətlərimiz xaricə mal satmaq qabiliyyətinə malik deyirlər” və ya “onların malları yüksək keyfiyyətdə deyil” kimi mənfi düşünməməliyik. Gedib ixracatçılardan “nə üçün mallarınızı filan ölkələrə ixrac etmirsiniz?” deyə soruşsanız, bəlkə çoxlarından “mən həmin ölkələrə nisyə mal satıb riskə getmək istəmirəm” cavabını eşidəcəksiniz. Bəlkə də, bugünə qədər mexanizm olmadığı üçün satmırdılar. PAŞA Bank artıq faktorinq xidmətini aktiv şəkildə təklif edəcəkdir. Çünki biz qeyri-neft sektorundakı ixracatçılara dəstək göstərmək istəyirik”.

Melih Mengü, “Hazırda PAŞA Bankın komandası bir neçə min faktura üzrə əməliyyatı icra etməyə hazırdır”, - deyərək söhbəti yekunlaşdırdı.

*Söhbətləşdi: Seymur YUNUSOV*



# “Xaricdə dini təhsil alanlar bizə xurafat gətirirlər”

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, Bakı kəndlərinin ən tanınmış nümayəndələrindən olan Ziyad Səmədzadə Modern.az saytına müsahibə verib. O, müsahibədə Nardaran hadisələrinə toxunub. Deputatla söhbəti təqdim edirik.**



**- Ziyad müəllim, Bakı kəndlərinin tanınmış nümayəndəsi kimi Nardaran qəsəbəsində baş verən son hadisələrə sizin prizmanızdan necə baxmaq olar?**

- Nardaran Abşeronun ən qədim və zəngin tarixə mailk olan kəndlərindən biridir. Mən uşaqlıqdan Abşeron kəndlərini qarış-qarış gəzmişəm və deyərdim ki, hərəsinin öz təravəti var. Uşaqlıq illərimdən Nardaranı şeir, muğam məkanı kimi tanımışam. Bu kəndlərdə həmişə müdrik ağasaqqalar görmüşəm, onların arasında çox yaxşı münasibətlər mövcud idi. O zamanlar da bu kəndlər arasında intensiv gediş-gəliş vardı. Yeri gəlmişkən onu da deyim ki, Nardaranda muğamın incəliklərini dərindən bilir, xanəndəni ifaçılıq məharətindən asılı olaraq qiymətləndirirlər. Bu mənada xalqımızın qədim kökünə, ənənələrinə sadiq qalan qədim Nardaran kəndində keçirilən toy məclislərində oxumaq əvvəla, cəsarət istəyir, ikincisi həmin toylar xanəndə üçün böyük məktəbə çevrilir, ondan məsuliyyət və ustalıq tələb edir. Məsələn, Hacı Tələt, Zülfü Adıgözəlov, Hacıbaba Hüseynov, Əbülfət Əliyev, Əlibaba Məmmədov və Məmmədbağır Bağırzadə kimi çox dəyərli sənətkarlar bu kəndin toy məclislərində böyük həvəs və məsuliyyətlə çıxış ediblər. Çünki burada klassik ədəbiyyatı, Nizami, Füzuli, Seyid Əzim Şirvanini, Əliağa Vahidi, Haşım bəy Saqibi bilən insanlar çox idi. Biz hamımız fəxr edirik ki, Hacı Mail kimi şairimiz, Füzulişünas alimimiz olub.

Çoxları kimi mən də düşünməzdim ki, din pərdəsi altında burda belə hadisələr baş verə bilər. Baxmayaraq ki, Nardaranda islam dini dəyərlərini qoruyan insanlar çox olub, mən xatırlamıram ki, ötən əsrin 60-70-ci illərinə kimi orada hansısa bir xoşagəlməz hadisə baş versin. Hətta o vaxt muğam ustadları bu kəndə toya gələndə çox məsuliyyət hiss edərdilər.

Nardaranda baş verən son hadislərdə yerli camaatdan çox kənar qüvvələr daha çox rol oynadı. Taleh Bağırzadə və tərəfdarları müxtəlif yollarla insanların dini baxışlarını dəyişdirərək dövlətimizə qarşı yönəltmək iddiasında oldular. Təbii ki, hadisələrin kökündə onların Azərbaycanın ərazi bütövlüyünə qarşı addımları dururdu.

Bu gün bizim bütün din xadimləri Taleh Bağırzadə kimilərinə aramızda yer olmadığını bildirirlər. Çünki onların bu hərəkəti Azərbaycançılığa qarşıdır. Onların niyə məhz bölgə olaraq Nardaranı seçməsi yalnız onunla bağlıdır ki, müəyyən qüvvələr orada yaranmış boşluğu hiss etdilər və bundan yararlanaraq, insanları dövlətimizə qarşı yönəltməyə çalışdılar. Deyərdim ki, bir növ bu insanlardan istifadə edildi. Bu məqamda sabitliklə əlaqədar dövlətimizin atdığı addımları çox yüksək qiymətləndirirəm və müdafiə edirəm.

Azərbaycan cəmi 25 ildir ki, müstəqillik qazanıb. Buna baxmayaraq, dünyadakı 57 islam ölkəsi içərisində ən yüksək inkişaf edən dövlət kimi tanınır. Bunu son illər apardığım təhlillərə əsasən deyirəm. Bir çox islam ölkələrində yaşayan azərbaycanlı müsəlmanlar var və orda icmalar fəaliyyat göstərir. Bu dövlətlər içərisində yoxsulluğa qarşı proqram həyata keçirən və yüksək nəticələr edən əldə məhz Azərbycandır. Ərazisinin bir hissəsinin erməni tapdağı altında olmasına baxmayaraq, Azərbaycanda sabitlik hər zaman qorunub saxlanılır. Azərbaycanın öz inkişaf modeli var. 57 müsəlman ölkəsi içərəsində inkişaf sürəti, strateji proqramların həyata keçirilməsi, yoxsulluğun aradan qaldırılmasına görə Azərbaycan liderdir. Bu gün Azərbaycan televiziyası ilə dövlətin tarixi abidələrinə, islamın maddi abidələrinə münasibəti əks etdirən filmlər verilir. Çox qürur hissi keçirdim ki, heç bir müsəlman ölkəsində son 10-15 ildə bu qədər böyük həvəslə, inkişafla, yüksək zövqlə tikilib istifadəyə verilən məscidlər yoxdur. Heydər Əliyev məscidi, Təzəpir məscidi, Bibiheybət məscidi, Gəncədə İmamzadə məscidi...

Bir necə tədbirdə şeyx həzrətləri ilə birlikdə iştirak etmişəm. Qafqaz Müsəlamanları İdarəsi yanında Elmi-dini şuranın sədri Vasim Məmmədəliyev, qurumun üzvləri ilə birlikdə Bibiheybət məscidində, Gəncədə olduq, sonra Şamaxıya qayıtdıq. Şamaxıda tikilən məscidə baxdıq. Görülən işlərdən sevinirsən ki, vaxtilə ulu öndər Heydər Əliyev bu məsələlərə nə qədər böyük diqqət yetirib. Azərbaycanın hər bir bölgəsində islami dəyərlərə çox böyük diqqət verilir.

Cənab prezident İlham Əliyevin ailəsi ilə Məkkə ziyarətini əks etdirən kadrlara həyəcansız baxmaq olmur. Bu kadrlardan bütün dünya görür ki, Azərbaycanda islam dininə nə qədər böyük diqqət var. Bu din, mədəniyyət qorunur. Dini xadimlər də Azərbaycanda sabitliyin olması, inkişafı üçün böyük işlər görürlər.

İndi Azərbaycanın uğurla inkişaf etdiyi bir şəraitdə bəzi insanlar Nardaranda nə etmək istəyirlər? Azərbaycan bayrağını çıxarıblar, Azərbaycan dövlətçiliyini təmsil edən insanları öz yanlarına buraxmırlar, uşaqları məktəbə qoymurlar. Bunu bütövlükdə Nardaran camaatına aid etmək olmaz. Biz bu gün islam ölkələrində nələrin baş verdiyini görürük. İslam ölkələrində etnik toqquşmaların baş verdiyi şəraitdə Azərbaycanda sabitlik var. Azərbaycanın dini əsaslarla heç bir problemi yoxdur. Azərbaycan artıq tolerantlıq mərkəzinə çevrilir. Cənab prezident bunu xüsusi qeyd edərək, öz yanında vacib bir məsələ ilə bağlı – millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dəyərli alimimiz akademik Kamal Abdullanı Dövlət müşaviri təyin etdi.

Azərbaycan müstəqil siyasət yeridir və bunu görmək istəməyən qüvvələr var. Amma tədbirdə çıxış edən bütün ziyalılar, din xadimləri deyirlər ki, Nardaran hadisələrinin islam dini ilə əlaqəsi yoxdur.

Azərbaycanın artıq dünyanın bir çox görkəmli siyasi xadimləri tərəfindən yüksək qiymətləndirilən inkişaf modeli var. Bu modelin daha da dərindən araşdırılmasını prezidetimiz elmimiz qarşısında vəzifə qoyub. Orada çıxışımda qeyd etdim ki, inkişafın Azərbaycan modelinin təmin edilməsinin bir amili də ölkədə olan islami-mənəvi dəyərlərin qorunmasıdır. Azərbaycan dövləti beynəlxalq aləmdə öz imicini artırır, ərəb ölkələri ilə, islam ölkələri ilə əməkdaşlıq edir. Bütün bunları gözü götürməyən qüvvələr var.

İnsanlarla söhbətlər edilir, fikir mübadiləsi aparılır. Amma əgər insanlar bundan sonra da dövlətin ərazi bütövlüyünə, müstəqilliyinə qaşrı zor tətbiq etməyə davam edirlərsə, təbii ki, bu, bağışlanmaz haldır və qanunla tədbirlər görülməlidir.

Vacib məsələlərdən biri də ondan ibarətdir ki, hər bir dövlətin özünəməxsus ideologiyası var. Azərbaycançılıq ideologiyası ölkəmizin, xalqımızın inkişafı üçün güclü amildir. Hər bir xarici dövlətin özünün təbliğ metodologiyası var. Biz dindən millətin birləşməsi naminə istifadə etməliyik. Ümumi rəy naminə birləşməliyik. Əgər islami-mənəvi dəyərlərə zidd fikirlər irəli sürülürsə, biz buna qarşı etiraz mövqeyimizi bildirməliyik.

Bizim xaricdə təhsil almış çoxsaylı insanlarımız var. Onlardan bəziləri təhsil alandan sonra yad ideologiyanı Azərbaycana gətirmək istəyirlər. Lakin xalq bunu qəbul etmir. Ona görə biz çalışmalıyıq ki, məscidlərimizdə də yalnız Quranda yazılan və Muhəmməd pey-ğəmbərin qeyd etdiyi islami dəyərlər təbliğ olunsun. Həmin islami dəyərlərdə kin, ədavət yoxdur. Orada silah gücünə nəyisə dəyişdirmək ənənəsi yoxdur. Balaca kəndin nə gücü var ki, Azərbaycan dövlətinə qarşı çıxsın. Bu, o kəndin əhalisinin fikri deyil, orada yer tapmış, artıq hamıya məlum olan müəyyən qüvvələrin təxribatıdır.

İslami dəyərlərin təbliği və qorunmasında Qafqaz Müsəlamanları İdarəsi, Şeyx həzrətləri böyük işlər görür. Neçə illərdir müşahidə edirəm ki, Qafqaz Müsəlmanları İdarəsi Azərbaycan dövlətinin siyasətini dəstəkləməyi, din faktorundan sabitlik üçün istifadə etməyi ön plana çəkir. Heydər Əliyev, İlham Əliyev də müqəddəs bayramlar ərəfəsində dindarlarla görüşüb, iftar süfrələri açılıb. İnsanlar Həcc ziyarətinə gedir, bunlara dövlət dəstəyi var. İslam Universiteti fəaliyyət göstərir və bu gün Gəncə, Quba, Bibiheybət, Maştağa, Buzovna, Naxçıvanın axundlarının çıxışlarını eşitdim və qürur duydum ki, yüksək səviyyədə danışırlar, islamdakı mənəvi dəyərlərin mahiyyətini açıqlayırlar.

**- Bu gün demək olarmı ki, bizim axundların bilik səviyyəsi mollalıqdan yuxarı qalxıb?**

- Nadanlıqdan, savadsız mollalıqdan yuxarı qalxıb. Bu gün bizim axundlarımızın Cəlil Məmmədquluzadənin əsərlərindəki axundlarla eyniliyi yoxdur. Onlar hər hansı dünyəvi, dini xadimlə fikir mübadiləsi apara bilər.

Taleh Bağırzadəyə gəldikdə, onun fikirlərinin islam dininə heç bir aidiyyatı yoxdur. Siz yeni qaydalar yaratmaq istəyirsiniz? Sizin irəli sürdüyünüz fikirlər islamda yoxdur. Siz dövlətin çevrilməsini istəyirsiniz, dövlətə qəsd edirsiniz...

25 ildə keçilən yola baxaq. Bu illər ərzində nə qədər məscidlər tikilib, səliqə-səhman yaradılıb, Həccə nə qədər insanlar gedib. İslam Universiteti yaratmışıq, Quran tərcümə olunub. Yad ünsürlər, o cümlədən Qərbin müəyyən dairələrinin məqsədi də var ki, sürətli inkişaf edən Azərbaycanda qarşıdurma yaratsınlar, aranı qarışdırsınlar və inkişafımızı ləngitsinlər. Cənab prezident də deyib ki, biz heç vaxt onların sözü ilə oturub-durmayacayıq, Azərbaycan müstəqil siyasət yeridir.

Cənab prezidentin Macarıstanın baş naziri ilə görüşündən bir fraqmenti xatırladım. “Dünyada çox böyük ölkələr var və onların əksəriyyəti böhran içərisində yaşayır. Hər yanda savaş, etnik toqquşmalar var. Bunların kökündə səriştəsiz rəhbərlik durur. O ölkələrdə ki güclü liderlər var, belə proseslərin qarşısı alınır”. O, Azərbaycan prezidentini də həmin liderlərdən biri hesab edir.

**- Siz Qafqaz Müsəlmanları İdarəsinin Elmi-dini şurasının üzvüsünüz. Artıq dini qanunlara dəyişiklik olunur. Dəyişikliyə görə, xaricdə dini təhsil almış şəxslər Azərbaycanda hüzr mərasimlərini idarə edə bilməzlər. Bu məsələyə münasibətiniz necədir?**

**- Qanun layihəsi bu gün Milli Məclisdə müzakirə olunacaq. *(Milli Məclisdə “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” qanun layihəsi dekabrın 4-də müzakirəyə çıxarılıb - red.).* Hesab edirəm ki, düzgün addımdır.** Hər şeyin bir sərhədi olmalıdır, çox da təəssüf ki, xaricdə dini təhsil alanlar orada yiyələndikləri zərərli bilikləri burada tətbiq etmək istəyirlər. Bu isə artıq bizim baxışlarla uyğun gəlmir. Zəncir vurmaq, qan çıxarmaq məsələsi... bəzən bunun kadrlarını da çəkirlər və insan baxanda çox həyəcan keçirir ki, niyə belə olsun? Ona görə hesab edirəm ki, qanuna ediləcək bu dəyişiklik düzgün addımdır.

**- Yəni, xaricdə dini təhsil alanlar bizə xurafat gətirirlər?**

- Bəli, 100 faiz belədir. Ola bilər, içərilərində kimsə özünü saxlayıb, yad əqidəni, ideologiyanı götürməyib. Amma təcrübə göstərir ki, orada çoxları dəyişir. Ona görə qanun layihəsində təklif olunur ki, bu məsələlərlə bağlı qaydalar yaransın. Azərbaycanın kifayət qədər din xadimləri var ki, təcrübə görmüş, xalqın xüsusiyyətlərini dərindən bilən şəxslərdir. İslam Universiteti var. Bu ali təhsil ocağında dərs aldıqdan sonra ağsaqqaların rəhbərliyi ilə bu işləri davam etdirmək olar.

**- Azərbaycanda belə bir tendensiya hiss olunur: islam dininin müxtəlif sektaları ilə bağlı mübarizə gedir ki, bunlar bizim dövlətçiliyimizə təhlükə törətməsin. Amma digər dinlər var ki, onların təriqətləri, sektaları ciddi şəkildə fəaliyyət göstərir. Onların da təhlükə məqamları var. Bilmək istərdik ki, onlara qarşı mübarizə hansı səviyyədədir?**

- Hesab edirəm ki, Azərbaycanda xaricdən maliyyələşən qeyri-hökumət təşkilatları var idi, onların bəziləri bəlkə indi də qalıb. Amma onların arzuları Azərbaycan xalqının milli maraqlarına uyğun gəlmir. Vaxtilə aşkarlanmışdı ki, onlar haradasa tədbirlər, dərslər keçirlər, kimlərisə başqa dini cərəyanlara qoşmaq istəyirlər, kimlərsə buna gedirdi. Yavaş-yavaş Azərbaycan xalqı bu məsələlərə öz münasibətini bildirir. Dini mövhumatçılığın, radikal dinçiliyin təsiri altına düşməmək üçün cəmiyyət bununla barışmamalıdır. Cəmiyyət hazırlanmalıdır, tərbiyəvi proseslər getməlidir. Dini savadlılığın səviyyəsi yüksəlməlidir. Millətin taleyi ilə bağlı xoşagəlməz məsələləri din pərdəsi altında camaata öyrətməyə ehtiyac yoxdur.

**- Xaricdə dini təhsil alanların Azərbaycanda fəaliyyətinə qarşısınız və bunu dəstəkləyirsiniz. Amma bizim gənclər xaricdə təkcə dini təhsil almırlar, axı həm də digər sahələr üzrə ixtisaslara yiyələnənlər daha çoxdur. Onların da gələcəkdə Azərbaycana hansısa mənfi təsiri ola bilərmi?**

- Yox, bunlar fərqli məsələlərdir. Xaricdə əgər nanotexnologiyalar sahəsində dərs alırsa, bu, bizim üçün vacibdir. Gənclərimiz dünyanın aparıcı ölkələrinin qabaqcıl universitetlərində təhsil alıb vətənə qayıdırsa, heç şübhəsiz, bu, milli sərvətimizin inkişafı baxımından çox vacibdir. Zərərli ideologiyanın təsiri altında düşmək isə başqa məsələdir.

**- Bunlardan çıxış edərək demək olarmı ki, xaricdə dini təhsil verənlər ancaq öz maraqlarına xidmət edirlər.**

- Bəli, başqa cür ola da bilməz. Başqa ölkələrdə dini təhsil verənlərin proqramlarında azərbaycançılıq ideologiyası yoxdur. O məfkurə yoxdur. Onu təbliğ etmirlər. Din mütəxəssisi deyiləm, cərəyanlar bizə uyğun deyil və dövlətin maraqlarına ziddir.

Ona görə hesab edirəm ki, burada diqqətli olmalıyıq. 25 il bundan qabaq azadlıq eyforiyasına qovuşan zaman bu fikirlər mövcud idi. Amma görün biz bu illər ərzində nə qədər böyük nailiyyətlər əldə etmişik. Məscidlərimiz elə vəziyyətdə idi ki, 1 manat tapılmırdı onlar bərpa olunsun. Amma bu gün məscidlərə baxın. Bütün bunların arxasında Azərbaycan dövlətinin siyasi-iqtisadi qüdrətinin artması dayanır.

**- Bakı kəndlərinin ən üzdə olan nümayəndələrindən birisiniz. Bu məsələlərlə bağlı həmin kəndlərdə görüşləriniz olub, sizə müraciətlər edənlər varmı?**

- Buzovnada anadan olmuşam, Bakının bütün kəndlərindəki xoşməramlı tədbirlərə dəvət olunanda iştirak edirəm və insanlarla söhbətdən aldığım nəticə ondan ibarətdir ki, onlar bizim mətbuatımızın bu proseslərə düzgün reaksiya verməyini arzulayırlar.

İstəyirlər ki, mətbuatda dinlə bağlı qızışdırıcı yazılar getməsin. Jurnalistlər xalq qarşısında məsuliyyəti dərk etsinlər. Xalqın müqəddəsliyinə xidmət edən abidələrimizə laqeyd olmasınlar.

Bütün Azərbaycanda olduğu kimi, Bakı kəndlərində də heç kim bu hadisəni bəyənmir, əksinə, təəssüf edir ki, niyə belə hal baş verdi. Hadisəni törədənlərin cəzalandırılmasını istəyirlər.

Hər məktəbə getməyən uşağın taleyi insanları narahat etməlidir. Nə üçün, buna səbəb nədir? Axı, indi cahillik dövrü deyil. Cahil mollaları heç kim qəbul etmək istəmir. Bu gün biz proseslərə biganə qalmamalıyıq.

Tədbirlər Planında büdcə proqnozları və onların icrası, Məcəllədəki dəyişikliklərlə bağlı vergi ödəyicilərinə göstəriləcək xidmətlər, əhalinin və vergi ödəyicilərinin KİV-lər vasitəsilə məlumatlandırılması, vergi ödəyiciləri ilə görüşlərin keçirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi və sadələşdirilməsi, vergi ödəyicilərinin təsərrüfat subyektlərinin inventarizasiyasının keçirilməsi, operativ vergi nəzarəti tədbirlərinin keçirilməsi zamanı tərtib olunan akt və inzibati xətalara dair işlər haqqında protokolun formasının təqdiq edilməsi, kadr və tədris məsələləri, yeni proqramlar əsasında vergi orqanı əməkdaşlarına təlimlərin keçirilməsi də nəzərdə tutulur.

Yekunda vergilər naziri Fazil Məmmədov müzakirə olunan məsələlərlə bağlı konkret tapşırıqlarını vermişdir.

# "Vergilər" mövzusunda tələbə və magistrantlar arasında olimpiada keçirilmişdir






Dekabr ayının 4-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) ölkəmizin 13 ali məktəbin 300-dək tələbə və magistrantının iştirak etdiyi, "Vergilər" mövzusunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş 9-cu olimpiada keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə UNEC-in foyesində ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoymuş, Azərbaycan xalqı və dövləti qarşısında tarixi xidmətləri olan ulu öndərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

UNEC-in və Vergilər Nazirliyinin nümayəndələri olimpiada iştirakçılarını salamlamış, olimpiadaya qatılan tələbə və magistrantlara uğurlar arzulamışlar. Qeyd olunmuşdur ki, hər il Bakıdan və digər şəhərlərdən çoxlu sayda tələbə və magistrant bu olimpiadaya qatılır. Sonra münsiflər heyətinin üzvləri iştirakçıları olimpiadanın şərtləri ilə onları tanış etmişlər. Test üsulu ilə təşkil olunmuş olimpiada zamanı iştirakçılar 2 saat ərzində Vergilər Nazirliyinin Tədris Mərkəzində müvafiq test bazası əsasında hazırlanmış sualları kompyuter vasitəsilə onlayn rejimdə cavablandırmışlar. Hər bir tələbə üçün fərdi sual bazası tərtib olunmuşdur. Nəticələr iştirakçı ali məktəblərin təmsilçilərindən ibarət münsiflər heyətinin iştirakı ilə Tədris Mərkəzinin mütəxəssislərinin nəzarəti altında xüsusi kompyuter proqramları vasitəsilə qiymətləndirilmişdir.

Olimpiadanın nəticələrinə və qaliblərin mükafatlandırılmasına həsr olunmuş yekun tədbirdə çıxış edən Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov iştirakçılara öz minnətdarlığını bildirmiş, ən yüksək nəticə göstərmiş tələbə və magistrantların, həmçinin onların müəllimlərinin adlarını elan edərək, qalibləri təbrik etmişdir.

Vergilər nazirinin müşaviri Ələkbər Məmmədov çıxış edərək ulu öndər Heydər Əliyevin əsasını qoyduğu və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən mükəmməl iqtisadi islahatlar nəticəsində ölkəmizin regionda və dünyada aparıcı dövlətlər səviyyəsinə qalxdığını diqqətə çatdırmışdır. O, qeyd etmişdir ki, vergi xidməti əməkdaşları ulu öndərin müəyyənləşdirdiyi dövlətçilik ideyalarına sadiq qalaraq ölkəmizin hərtərəfli inkişafı yolunda bütün zəruri tədbirləri görürlər. Artıq 9-cu ildir ki, ali məktəb tələbələri və magistrantları böyük həvəslə bu olimpiadada iştirak edir. Olimpiyada iştirakçılarının çoxu sonradan vergi orqanlarına işə qəbul üzrə test imtahanlarında yüksək nəticələr göstərərək, vergi orqanlarında işlə təmin olunurlar.

Tələbələr arasında mükafata layiq yerlər aşağıdakı kimi bölünmüşdür:

**I yer - Məmmədzadə Murad Teymur oğlu (UNEC), II yer - Əlizadə Zümrüd Mürşüd qızı (UNEC), III yer - Hüseynli İsgəndər Həbib (UNEC),** UNEC-in tələbəsi I yer tutduğuna görə həmin tələbənin müəllimi də xüsusi mükafata layiq görülmüşdür.

Magistrantlar arasında mükafata layiq yerlər aşağıdakı kimi bölünmüşdür:

**I yer - Həmidova Mədinə Bəhruz qızı (UNEC), II yer - İsmayılov Orxan Oqtay (UNEC), III yer - Əsədzadə Vüsal Həsən oğlu (UNEC).**

UNEC-in magistrantı I yer tutduğuna görə həmin magistrantın müəllimi də xüsusi mükafata layiq görülmüşdür.



# Vergi sistemində çalışanların yarıdan çoxu gənclərdir

İşə qəbulla bağlı müsabiqədən müvəffəqiyyət qazanaraq işlə təmin olunmuş gənc kadrlarla Vergilər Nazirliyində görüş keçirilmişdir. Naziliyin İnsan resursları idarəsinin rəisi Faiq Şahbazov qeyd etmişdir ki, gənc kadrların potensialından düzgün istifadə olunmasına, onların peşəkarlıq səviyyəsinin artırılmasına hər zaman önəm verilir.

İşə qəbul 2005-ci ildən dövlət başçısının fərmanına uyğun olaraq TQDK tərəfindən test üsulu ilə keçirilir. Müsabiqənin növbəti - müsahibə mərhələsindən müvəffəqiyyətlə keçən namizədlər komissiyanın qərarına əsasən siyahıya daxil edilir və iki il müddətində siyahıda saxlanılır. Sonra isə ehtiyat kadrlar sırasından müvafiq vakant ştat vahidlərinə uyğun təyinat aparılır.

Bildirilmişdir ki, hazırda vergi sistemi əməkdaşlarının 50 faizindən çoxu gənc kadrlardır. Onların arasında öz çalışqanlığı, səriştə və bacarığı nəticəsində qısa müddət ərzində idarə və şöbə rəisləri, rəis müavinləri vəzifələrinə təyin edilənlər də var. Nazirlikdə kadrların peşə hazırlığı səviyyəsinin daim yüksəldilməsi məqsədilə bilik və bacarıqlarını artırmaq üçün onlara hər cür şərait yaradılır.

Sonda ərazi vergilər idarələrinə təyin olunmuş gənc kadrlar nazirlik tərəfindən onlara göstərilən etimadı doğrultmaq üçün səylə çalışacaqlarını qeyd etmişlər.

Xatırladaq ki, 2005-ci ildən indiyədək dövlət vergi orqanlarına işə qəbulla bağlı 10 müsabiqə keçirilmiş, bu müsabiqələrdə iştirak üçün ümumilikdə 13.500 nəfər müraciət etmiş, onlardan 1834 nəfəri test imtahanı mərhələsində uğur qazanaraq müsahibə mərhələsinə buraxılmış, müsahibələrdə namizədlərdən 1294-ü vakant vəzifələrə uyğun hesab olunaraq ehtiyat kadrlar siyahısına daxil edilmişdir. Bu günə kimi ehtiyat kadrlar siyahısında olan namizədlərdən 1137 nəfəri dövlət vergi orqanlarında işlə təmin olunmuş, 73 nəfər isə kadr ehtiyatından çıxarılmışdır.

# Kredit qoyuluşları 18,6 milyard manata yaxındır



2015-ci ilin oktyabr ayında kredit təşkilatlarının kredit qoyuluşları 547,1 milyon manat azalıb.

Mərkəzi Bankın məlumatına görə, oktyabr ayının sonunda cəmi kredit qoyuluşları 18 milyard 566.4 milyon manat olub. Bu, sentyabr ayının sonu ilə müqayisədə 2,9% azdır. Sentyabr ayının sonunda cəmi kredit qoyuluşları 19 milyard 113,5 milyon manat idi.

Qeyd edək ki, devalvasiyadan sonra fevral ayının sonunda kredit qoyuluşları 20 milyard 697,2 milyon manata çıxmışdı. Mart-Oktyabr aylarında kredit qoyuluşlarının məbləği 2 milyard 130,8 milyon manat və ya 10,3% azalıb. Mərkəzi Bank bildirir ki, son 2 ayda (sentyabr - oktyabr) kredit qoyuluşlarındakı azalma "Azərbaycan Beynəlxalq Bankı" ASC-də aparılan restrukturizasiya tədbirləri ilə əlaqədardır.

### İPOTEKA KREDİTLƏRİ ARTIB

Oktyabrda ev təsərrüfatlarına verilən kreditlər (istehlak kreditləri) 7 milyard 592,2 milyon manatdan 7 milyard 557,1 milyon manata geriləyib. Ev təsərrüfatına verilən kreditlərə daxil olan, daşınmaz əmlakın tikintisinə və alınmasına (ipoteka krediti daxil olmaqla) verilən kreditlər oktyabrda 117 milyon manat artaraq 1 milyard 357,3 milyon manatdan (sentyabr) 1 milyard 474,5 milyon manata çıxıb. Əgər bu kreditlərdə artım olmasaydı, istehlak kreditlərində geriləmə daha çox olardı.

### REAL SEKTORA VERİLƏN KRDİTLƏR KƏSKİN AZALIB

Sentyabr ayının sonu ilə müqayisədə oktyabrda sənayeyə verilən kreditlər 1 milyard 968,9 milyon manatdan 1 milyard 610,3 milyon manata, inşaat və əmlaka verilən kreditlər 2 milyard 728,5 milyon manatdan 2 milyard 468 milyon manata, kənd təsərrüfatına verilən kreditlər 757,5 milyon manatdan 685,5 milyon manata düşüb.

Oktyabrda ticarət və xidmət sektoruna verilən kreditlər 2 milyard 434,9 milyon manatdan 2 milyard 546,7 milyon manata artıb.

# Kimya nəhəngləri birləşməyə hazırlaşır

**Dünyanın iri kimya şirkətləri - Dow Chemical Co. və Dupont Co birləşməyə hazırlaşır. Bu barədə Wall Street Journal məlumat yayıb.**

Mövzu haqqında məlumata malik olan mənbələrə görə, Dow Chemical Co.və Dupont Co. birləşmək danışıqlarının son mərhələsindədir. Razılaşma əldə olunarsa, bu, kimya sektorunda ən böyük şirkət birləşməsi olacaq.

Məlumatın gizli olmasına görə, adını açıqlamayan mənbələr müqavilənin bu həftə ərzində bağlanacağını qeyd ediblər.

Birləşmədən sonra, şirkətin tənzimləyici qanunlar və digər səbəblərdən iki, ya da üç yerə bölünə biləcəyi qeyd edilir. Digər tərəfdən, razılaşma əldə olunacağı barədə təminatın olmadığı və danışıqların uğursuzluqla da nəticələnə biləcəyi vurğulanıb.

Dünya şöhrətli bu iki amerikalı kimya şirkətinin razılaşma əldə etməsi, BASF SE-dən sonra dünyanın ikinci ən böyük kimya sənayesi şirkəti və ən böyük toxum və kənd təsərrüfatı dərmanı şirkətinin yaranmasını təmin edəcək. Wall Street Journal bu birləşmə danışıqları xəbərini daha əvvəl də vermişdi.

# Azərbaycan dünyada ən böyük heyva istehsalçılarından biridir



Azərbaycan dünyada heyva istehsalına görə 6-cı yerdədir.

Türkiyə Kənd Təsərrüfatı Palataları Birliyinin (TZOB) Direktoru Şemsi Bayraktar, bildirib ki, 2013-cü ildə heyva istehsalında Türkiyə birinci, Çin ikinci, Özbəkistan isə üçüncü olub.

"2013-cü ildə Türkiyə 630 min 325 ton olan dünya heyva istehsalının 22,1%-ini təkbaşına həyata keçirib. Türkiyə 139 min 311 tonla birinci yerdə idi. Türkiyənin ardınca 127 min tonla Çin, 88 min tonla Özbəkistan, 40 min 420 tonla Mərakeş, 35 min 129 tonla İran, 27 min 839 tonla Azərbaycan və 27 min 680 tonla Argentina gəlirdi" deyib.

Türkiyə Kənd Təsərrüfatı Palataları Birliyinin Baş (TZOB) Direktoru Şemsi Bayraktar bildirib ki, bu il Türkiyədə heyva istehsalı ötən ildən daha yaxşı ola bilər: "2015-ci ildə heyva istehsalının, 2014-cü illə müqayisədə 4,4 faiz artımla 112 min tona çatacağı ehtimal edilir".

2010-ci ildə 121 min 85 ton heyva istehsal edən Türkiyədə, hasilat 2011-ci ildə 127 min 767 tona, 2012-ci ildə 136 min 577 tona, 2013-cü ildə 139 min 311 tona çıxıb, 2014-cü ildə isə hasilat 107 min 243 tona qədər enib.

Azərbaycanın Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda 2013-cü ildə 27839 ton, 2014-cü ildə 27236 ton heyva istehsal olunub.

### EDİLMƏSİ LAZIM OLANLAR

Bayrakdar bildirib ki, digər bəzi meyvələr ilə müqayisədə heyvanı yetişdirmək, yığmaq və saxlanmaq asandır.

Heyva bağları qışın çox soyuq keçdiyi və küləyin güclü əsdiyi ərazilərdə salınmamalıdır.

Heyva istehsalında öndə olmaq üçün, yalnız heyva ağaclarının müvafiq məsafələrdə əkildiyi bağlar salınmalı, yaxşı keyfiyyət və standart çeşidlər istehsal edilməlidir.

Yığım zamanı heyva zədələnməməli, meyvənin rütubətli olmamasına, daşıma və qablaşdırmaya diqqət edilməlidir.

Heyvanın süfrədə istehlakı ilə yanaşı, mürəbbə, jele, marmelad və meyvə suyu kimi də qiymətləndirilməli, məhsula əlavə dəyər verilməlidir.

Markalaşmanın təmin olunması üçün istehsalçı maarifləndirilməli, təşviq edilməli və dəstəklənməlidir.

Xarici bazarlara üstünlük verilməli, yeni bazarlar tapılmalıdır.

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün*

# Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

**Hər bir insan həyatda öz yerini tapmalıdır. Amma öz yerini, özünə məxsus olan yerini tapmalıdır.**

Heydər ƏLİYEV

Hər kəsin həyatda öz yerini tapması üçün ilk olaraq onun sağlam mühitdə böyüməsi, düzgün fiziki və mənəvi inkişafı mühümdür. Dünyaya gəldiyi andan etibarən insan daim dəyişiklik və inkişafda olur. İstər fiziki, istərsə də mənəvi baxımdan özünü büruzə verən bu dəyişikliklər həyatın müxtəlif mərhələlərində biri digərindən daha vacib sayılsa da, ümumilikdə insanın formalaşmasında çox böyük əhəmiyyətə malikdir.

İnsan həyatının bu cür dəyişikliklərlə ən zəngin olduğu dövr isə onun uşaqlıq və gənclik illərinə təsadüf edir. Məhz bu dövrlərdə yaşanan çatışmazlıq və əksikliklərin fəsadı sonrakı dövrlərdə özünü daha qabarıq göstərir. Məhz bu baxımdan gələcək şəxsiyyətin cəmiyyətin layiqli üzvü kimi yetişməsi naminə onun fiziki və mənəvi cəhətdən tam və mütərəqqi inkişafına çalışmaq xüsusilə vacibdir.

### Bir ölkənin taleyi o ölkədəki hər bir uşağın tərbiyəsinə bağlıdır

Biz də bir vaxtlar uşaq idik və ətrafımızdakıların dəstəyinə ehtiyac duyurduq. İndi isə uşaqları anlamaq və onların düzgün fiziki və mənəvi inkişafına dəstək olmaq növbəsi bizdədir.

Mənəvi inkişaf həyatımızın hər anını əhatə etdiyindən fiziki inkişafla müqayisədə daha uzunmüddətlidir. Başqa sözlə, mənəvi inkişaf insanın ana bətnindən çıxdığı andan onun dünyasını dəyişdiyi son ana qədər davam edir. Deməli, bir insanın normal mənəvi inkişafı onun formalaşdığı dövrə qədər keçdiyi hər bir mühitin təsirindən asılıdır.



**Uşaqların inkişafında ən mühüm məqamlardan biri doğum prosesidir. Bu, əlbəttə, dünyanın ən gözəl, sevinc dolu anlarından biridir.** Çünki sən canı səndən olan birini 9 ay bətnində daşıyır və sonunda dünyaya gətirirsən. Ona toxunmaq, hiss etmək şansı qazanırsan. Təbii ki, bunlar insanın yaddaşında, həyatında unudulmaz xatirələr olaraq ömürlük yaşayır. Bəzənsə bu gözəl anlar heç də xoş olmayan xatirələrlə unudulmazlıq qazanır.

Doğumda yaranan problemlərdən ən çox ananın təsirləndiyini deyirlər. Lakin bu, heç də belə deyil, çünki uşaq doğulduğu ilk dövrlərdə ən çox onu 9 ay bətnində daşıyan anaya bağlı olur. Hətta maraqlıdır ki, təzə doğulan körpələr bir müddət özlərini hələ də analarının bir hissəsi sayırlar. Ona görə də ananın yaşadığı hər bir psixoloji vəziyyət, stress eyni qədər körpəyə də öz təsirini göstərir. Bəzən doğum zamanı ananın dünyasını dəyişməsi körpədə natamamlıq hissi yaradır, həmçinin uşağın yaddaşında ömürlük acı xatirə olaraq qalır.

Bu cür psixoloji vəziyyətin yaranması doğuş prosesinin çətinliyi, körpədə, yaxud anada təbii və ya doğuş prosesində diqqətsizlik ucbatından yaranan nöqsanlarla da bağlı ola bilər. Deməli, uşağın ilk mənəvi inkişafı onu dünyaya gətirən ana və dünyaya gəlməsinə kömək edən həkimlərdən asılıdır. Təbii ki, sonrakı mərhələdə rollar nisbətən dəyişməyə başlayır. Valideynlər, qohumlar, daha sonra isə bağça və məktəb həyatı, orada tanıdığı insanlar uşaqların mənəvi aləminə əhəmiyyətli dərəcədə təsir edirlər.

**Uşaqlar adətən çox emosional olurlar. Onlara ətrafda nə varsa təsir edə bilər. Buna görə də çox diqqətli olmaq lazımdır. Çünki xarakterin bünövrəsi məhz uşaq yaşlarda qoyulur.** Yəqin ki, bizlər də uşağa çox güzəştə getdikdə, istər maddi, istərsə də mənəvi hər bir tələbatını qarşıladıqda, onu həddindən artıq əzizlədikdə eqoizm, ərköyünlük, sözə qulaq asmamaq kimi halların yarandığını müşahidə edirik. Bunun da səbəbkarları elə özümüzük. **Uşağın düzgün mənəvi inkişafı üçün isə ona "yox" deməyi bacarmaq və onun "yox"ları qəbul etməsinə çalışmaq lazımdır.** Çünki hər yaş dövründə uşaq müxtəlif mühitlərə düşür, çoxlu insanlar tanıyır, çeşidli problemlər yaşayır. Təbii ki, o həyatının hər anında "hə" cavabı ilə qarşılaşmayacaq. Ona görə də uşağın düzgün tərbiyələndirilməsi üçün ona doğru olanı öyrətmək, yanlışlıqlardan uzaqlaşdırmaq lazımdır.

Uşaqların fiziki inkişafı dedikdə isə yalnız boy və bədən çəkilərinin artması başa düşülməməlidir. Bura sümüklərin böyüməsi, əzələlərin inkişafı, dişlərin, duyğu orqanlarının formalaşması da aiddir. Təbii ki, fiziki inkişafa düzgün qidalanma, pozulmayan yuxu sistemi, təmiz hava, ən əsası bədənin aktivliyi mühüm təsir göstərir. **Bəzən düzgün qidalanmanı analar uşağa yeməyi güclə yedirtmək kimi başa düşürlər, əslində isə belə deyil. Hətta yemək yedirmək üçün uşağa "qardaşın yeyir, sən yemirsən" demək də onda özünə inamsızlıq hissi yaradır və nəinki fiziki inkişafına kömək etmir, mənəvi inkişafına da ciddi ziyan vurur.** Yaxud da uşağa "bunu yesən,.." kimi sözlər deməklə əslində onu şərtə alışdırır, həm də yeməklərə qarşı seçici etmiş oluruq. Lakin uşaqlar yalnız yeməklərdən imtina edənlərdən ibarət deyil. Bir də hər şeyi yeyən uşaqlarımız var. Təbii ki, bu da sonda fiziki deformasiyalara gətirib çıxarır və onların səhhətində gələcək üçün arzuolunmayan xəstəliklər yaradır. Belə vaxtlarda uşağın özünə qarşı "çirkinəm" düşüncəsinin yaranmaması üçün daim yanında olmaq, onu düzgün həyat tərzinə alışdırmaq, bu işdə dəstək vermək lazımdır. **Hətta arıqlama müddətində onunla eyni qidaları yemək də övladınıza mənəvi dəstəyin göstəricisi olacaq.**

Fiziki inkişaf sağlamlığın əsas göstəricilərindən olduğundan uşaq doğulan andan onun oturduğu, yatdığı yerlərə önəm göstərmək, məktəbə getdiyi zaman parta arxasında düzgün oturmasına çalışmaq lazımdır. Çünki bu dövrdə sümüklər həssas olduğundan hər bir formanı tez alır.

**Ölkəmizdə uşaqların hərtərəfli inkişafına dəstək göstərilir və şərait yaradılır.** Bu sahədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsini qeyd etmək olar. 6 fevral 2006-cı il tarixdə yaradılmış komitə ailə, qadın və uşaq problemləri ilə bağlı dövlət siyasətini və onun tənzimlənməsini həyata keçirir. Komitə ölkəmizdə uşaqların müdafiəsi və onların rifahının yaxşılaşdırılması, hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində çalışır. Eləcə də, uşaqların inkişafı məqsədilə ölkəmiz 21 iyul 1992-ci ildə BMT-nin «Uşaq hüquqları haqqında» Konvensiyasını ratifikasiya etmiş, 2000-ci il 6-8 sentyabr tarixlərində Azərbaycan Respublikasının Prezidenti «Uşaqların silahlı münaqişəyə cəlb olunması» və «Uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyası» üzrə Fakültativ Protokollar imzalamışdır. 1993-cü ildə Azərbaycan «Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi haqqında» 1990-cı il 30 sentyabr tarixli Ümumdünya Bəyannaməsinə, 2004-cü ildə isə Beynəlxalq Əmək Təşkilatının «Uşaq əməyinin ən pis formalarının ləğv edilməsi» haqqında Konvensiyasına və eyni adlı Tövsiyəyə qoşulmuşdur. 1998-ci il mayın 19-da isə «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Həmçinin, uşaqların hüquqlarının qorunması və onların hərtərəfli inkişafı ilə bağlı Azərbaycan UNİCEF ilə də uğurlu əməkdaşlıq edir.

### Axar sular dönməz geri, eynilə gəncliyim kimi...

**"İnsanlar birdən-birə müstəqilləşdikdə dərhal özlərini yenidən əsirə çevirəcək liderlər seçirlər".** Erik Fromma məxsus olan bu fikir daha çox gənc və yeniyetmələrə aiddir. Çünki uşaqkən biz istər-istəməz böyüklərin qayğı və diqqətinə ehtiyac duyuruq, artıq yetkinlik yaşına çatdıqda sanki özümüzü təsdiq etməyə, böyüdüyümüzü göstərməyə çalışırıq. Evdəkilərin himayəsindən uzaqlaşmaq, azad olmaq istəyir, müstəqilliyə can atırıq. Hətta bəzi gənclər müəyyən qruplara qoşulur, özlərinə dostlar seçir, bəzən də sırf müstəqil olduqlarını göstərmək üçün daxildə özlərinin belə qarşı olduqları nələrisə edirlər. Özlərinə kimlərisə örnək seçir, onların dediklərini edirlər **və s. Bu zaman onlar özləri də bilmədən əslində bir tabelikdən çıxıb başqa tabeliyə düşürlər.** Nəzərə alaq ki, müasir dövrümüzdə gənclərin normal inkişafını əngəlləyəcək bir çox zərərli qruplar mövcuddur. Xüsusilə bu dönəmdə ailənin və gəncə təsir edəcək mühitin düzgün seçilməsi çox vacibdir. Çünki qorxulu kinofilmlər onda qorxu, treyler, döyüş filmləri şiddət duyğusu yarada bildiyi kimi, hər hadisənin ona təsiri də bu yaşda çox asandır. Təbii ki biz də bu yaş dövrlərini yaşamışıq və müstəqilliyə can atmışıq. Bəlkə də həmin vaxt düz hesab etdiklərimizin yanlış olduğunu yalnız indi görə bilirik. **Lakin əgər biz hansısa uğursuzluqdan nəsə öyrəniriksə, bu, artıq uğurdur. Bu gün biz həmin səhvləri görə bilirik, amma bəzən o səhvlər gənclik yaşının elə bir xətasına çevrilir ki, onun fiziki yaxud mənəvi inkişafına birdəfəlik zərbə vurur.**



Gənclərdə mənəvi inkişafa səbəb olacaq əsas amillərdən biri özünəgüvən sayəsində əldə etdiyi uğurdur. Bəzən hansısa işi görməmək üçün onu ertələmək və ya bəhanələr tapmaq da sonrakı inkişafda maneəyə çevrilir və adət halını alır. Çox maraqlıdır ki, gənclər bu dövrdə çox əsəbi olur, hətta adi əşyalarına toxunduqda belə əsəbləşirlər. Çalışmaq lazımdır ki, onların keçid dövrü gərginlikləri başa düşülsün, anlayışla qarşılansın. Çünki onlar bu dövrdə mənəvi inkiaf edirlər və onlarda çox duyğular dəyişir. **Bu duyğulardan ən əsası isə hamımıza tanış olan sevgidir. Gənclik dövründə onların özü üçün sevib-seçdiyi insanların sayı məhdud olsa da, məhəbbətləri qüvvətli olur.**

Yetkinlik yaşına çatmış insanın fiziki inkişafı bəlkə də onun sağlamlığının əsas göstəricisi sayılmalıdır. Çünki bu yaşda səhhətində yaranan bəzi problemlər ömür boyu onu müşayiət edə bilər. Bu yaşda düzgün qidalanma çox vacibdir. Daha çox enerji sərf edən gəncin düzgün qidalanmaması inkişafına ciddi əngəl yarada bilər. Nəzərə almaq lazımdır ki, fiziki inkişaf insanın mənəvi inkişafına da təkan verir. **Çünki fiziki cəhətdən problemi olan birində mütləq mənəvi sarsıntılar da yaşanacaqdır. Adətən hər kəs görünüşü haqda xoş sözlər eşitdikdə bütün gün əhval-ruhiyyəsi də xoş olur. Xüsusilə bunun gənclərə təsirini nəzərə alsaq, onda fiziki inkişafın mənəvi aləmə təsir gücünü anlamaq çətin deyil.**

Cəmiyyətimizdə fiziki cəhətdən qüsurlu insanlar da var. Təbii ki, qüsurlarının hansı səbəbdən və necə olmasından asılı olmayaraq, onların hər biri cəmiyyətin tamhüquqlu üzvüdür. Bunu olimpiya oyunlarında paraolimpiyaçıların qazandığı uğurlar, fiziki məhduduiyyətlərinə baxmayaraq, çox gözəl sənət nümunələri yaradanlar, iş həyatında uğurlu karyera qurmağı bacaranlar bir daha təsdiq edir. Onlar həyatı bəlkə də başqalarından daha yaxşı duyur və dəyərini bilirlər. Hazırda ölkəmizdə həm də fiziki məhdudiyyətli insanların inkişafı üçün çoxsaylı tədbirlər görülür, fiziki sıxıntılarını mənəvi dəstəklə aradan qaldırmağa çalışırlar. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin 2011-ci il 7 iyul tarixli "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının, "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncamlarını göstərmək olar. Hər iki sərəncamda gənclərin intellektual, fiziki və mənəvi inkişafı, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında onların fəal iştirakını təmin etmək məqsədi əsas götürülmüşdür.

**Yaşadığımız dünyada kiçik heçnə yoxdur (Ziqmund Freyd). Bizim cəmiyyət üçün etdiyimiz kiçicik şeylər bəlkə də kimin üçünsə böyük dəyərdir. Deməli, cəmiyyətin fiziki və mənəvi inkişafına biz də kiçik dəstəyimizlə böyük təsir göstərə bilərik.**

*Mətanət HÜSEYNOVA*

# Böyük sevgilərə bürünmüş nəğmələr...

## İstedadlı bəstəkar Aygün Səmədzadənin möhtəşəm konsertindən düşüncələrim...



Elə yazılar var ki, onu yazmaq üçün saatlarla düşünürsən. Cümlələr batmana dönüb söz kötüyündən çıxmır ki, çıxmır. Elə yazılar da var ki, hər şey içində kükrəyib daşır. İlhamın cilvələnib sözləri inci kimi sətirlərə nəqşləyir. Bir də ayılırsan ki, qəlbindən coşqu ilə axan söz şəlaləsi əlvan bir gül dəmətinə dönüb.

Əlbəttə ki, dərin istedad sahibi, düşüncəsinin və içdən qoşduğu musiqinin fəlsəfəsinə inanan və inandıran Aygün Səmədzadənin əsərlərindən aldığım təəssürat mənə bunları yazmağa əsas verir.

Bu günlərdə Heydər Əliyev Sarayında keçirilmiş "Biri varmış, biri yoxmuş" adlı yaradıcılıq gecəsinin möhtəşəm əlvanlığında onun zənginliyini bir daha dərk etdim. Təsirli şeirlər şairin içindən qopan fəryadı olduğu kimi, gözəl melodiyalar da onun müəllifinin iç dünyasından, ruhundan haraylanan qarşısıalınmaz bir seylabdır. Əlbəttə ki, istedadlar diyarı olan məmləkətimizdə zaman-zaman yaşayıb-yaratmış bəstəçi qadınlarımız olub və bu silsilə davam edir. Ağabacı Rzayeva, Şəfiqə Axundova, Ədilə Hüseynzadə, Elza İbrahimova, əsərləri ilə Avropanı fəth etmiş Firəngiz Əlizadə və bu günlərimizin ən talantlı bəstəçisi Aygün Səmədzadə... Onların bəstələrini oxucuya bir daha xatırlatmağa ehtiyac yoxdur. Hər bəstəkarın öz üslubu, dəst-xətti, melodiya əlvanlığı var. Hər birinin əsərləri illərin sınağından keçib, nəsil-nəsil müğənnilərimizin repertuarında səslənib. Sonuncu qadın bəstəkar Aygün Səmədzadənin konsertindən aldığım təəssürat o qədər güclü və duyğuludur ki... Əslində bilmirəm bu populyar sənətçini necə təqdim edim ki, fikrimi sözün əsl mənasında çatdıra bilim. Yaradıcılıq gecəsindəki ilk çıxışında özünün dediyi kimi,

*Fotolar Rüstəm İsmayılovundur*



***"Anamın arzularına sığındım.***
***Atamın ümidlərindən ruhlandım.***
***Dostlarımın sədaqətindən, düşmənin nifrətindən güc aldım!***
***Müəllimlərin etimadına arxalandım,***
***Övladlarımızın gələcəyinə inandım!***
***Bu torpağın suyunu, havasını, sevgisini içimə çəkdim***
***və hər şey musiqiyə döndü.***

**Böyük sevgiyə bürünmüş mahnılar belə yarandı..."**

Heç bir şərhə ehtiyacı olmayan Aygün xanımın köksündən qopan bu fəlsəfə əslində onun yaradıcılıq kredosudur.

Bülbül adına orta ixtisas musiqi məktəbini, sonra isə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasını bitirib. Hazırda bu akademiyanın dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar İncəsənət xadimi, Bəstəkarlar İttifaqının üzvüdür. 100-dən artıq mahnının, "Qatil", "Yad qadının məktubu", "Şekspir", "Əmir Teymur" kimi dram tamaşalarının, "Əlavə təsir", "Sirr", "Axırıncı dayanacaq" filmlərinin musiqi bəstəçisidir.

Əslində cəmi bir neçə cümləyə sığan bioqrafiyasının arxasında bir ömrün ümman qədər zəhməti, əziyyət və həyəcanları vardır. Aygün Səmədzadənin soyadı bizə hər şeydən əvvəl böyük, qədim bir köyün, tarixən təsdiq olunmuş əslzadə bir şəcərənin defakto təsdiqidir. Atası Azərbaycanın iftixarı, iqtisadiyyat elminin nəhəng mogikanı, akademik Ziyad Səmədzadədir. O Ziyad Səmədzadə ki, Xəzərin ən füsunkar bir guşəsində ta qədimdən məskunlaşmış Boz oğuzların yurdu, Buzovna kəndindəndir. O Buzovna ki, bu torpaqda Hacı İsgəndər adlı xalq qəhrəmanı, qəzəlxan Vahidin ustadı, "Oğuznamə"nin müəllifi Məşədi Azər, "Məcməüs-şüəra" adlı ədəbi məclisin rəhbəri olmuş Haşım bəy Saqib və onun qızı, xalq artisti Nəcibə Məlikova, Azərbaycan teatr sənəti haqqında ilk elmi əsər yazan, böyük aktyor Sidqi Ruhulla, gözəl aktrisa Nəsibə Zeynalovanın atası Kərbəlayi Cahangir Zeynalov, kaman ustaları Arif, Nazim, Toğrul Əsədullayevlər, böyük ilahiyyatçı alim Hacı Soltan Əlizadə, ustad xanəndə Nəriman Əliyev, ensiklopediyamızın yaradıcılarından olan Rəhimağa İmaməliyev, şair Cəfər Rəmzi, qaboy ustası Kamil Cəlilov, klarnet ifaçısı Nadir Axundov, əməkdar artist Mirzə Ağabəyli, bu günlərimizin məşhur qəzəlxan şairi Arif Buzovnalı, əməkdar jurnalist Üzeyir Muradov və saymaqla tükənməyən istedadlar, ziyalılar yetişdirib...

Səmədzadələr şəcərəsinin, Məşədi Əliabbas babanın bizlərə məlum olan ziyalı övladları Şamil və Nazim Səmədzadələr, akademik Ziyad Səmədzadə və onun istedadlı övladları – bəstəkar Aygün Səmədzadə, həkim və iqtisadçı, "İqtisadiyyat" qəzetinin baş redaktoru Aytən Səmədzadə, istedadlı iqtisadçı alim Elşad Səmədzadə və bu ziyalı nəslin davamçıları olan nəvələr, nəticələr... Bu şəcərənin hər bir üzvü ilk növbədə əsilzadə, alicənab, yüksək mədəniyyət və ən əsası tanrı bəxşişi olan istedadla səciyyələnir. Səmədzadələr şəcərəsi təkcə elm və ziyalılıq təcəssümü deyil, həm də babadan nəvəyədək Azərbaycanın milli dəyərlərinə, xüsusilə incəsənətinə və musiqisinə bağlılığı ilə tanınır.

Bu yazıda əslində o gözəl konsert gecəsinin xeyfindən çıxmaq istəməzdim. Lakin bu tanıtmalar da həlqənin özül bəndləridir. Əlbəttə ki, genetik kökə bağlılıq məhz uğurların ilk açarlarıdır.

Səhnədə müğənnilər – Brilyant Dadaşova, Nisə Qasımova, Lalə Məmmədova, Aygün Bəylər, Ayaz Qasımov, Eyyub Yaqubov, İlqar Muradov, Nurlan Növrəsli və başqaları ifalarını təqdim etdikcə, onun bəstələdiyi rəqs nömrələri sıralandıqca, nəhayət, çox böyük istedad sahibi, dirijor Teymur Göyçayevin Kamera orkestrinin ifası ilə səslənmiş Aygün xanımın çox ciddi klassik melodiyaları tamaşaçıları sözün əsl mənasında öz rayihəsinə bürüyərək məst etmişdi. Mənə daha çox xoş gələn Dağlılar rəqsi idi. Çünki bu rəqslə canımız həm ləzginkadan qurtuldu, həm də qafqazlı olduğumuz bu çılğın rəqslə bir daha möhürləndi. Bu mahnılar sanki intəhasız və rəngli uşaq koleydoskopu tək bir nağıldı, özü də belə başlar: Biri varmış, biri yoxmuş... Ümumiyyətlə, konsertin təşkili, tərtibi və işıqlandırılması, sarayın bu konsert üçün hazırlanması bu möhtəşəmliyi bir qədər də artırırdı. Hələ Aygün xanımın özünün çox zərif və titrək səslə ifa etdiyi həzin mahnılar...






**Mən dünyaya əl uzatdım,**
**Dünya mənə baxdı keçdi.**
**Səadətim şimşək kimi,**
**Bir an mənə çaxdı keçdi.**

Yaxud:

**İçimizə dolan sevgini, arzuları,**
**xatirələri tərənnüm edə bilmək,**
**İlahidən gələn bəxş**
**Bizi eşidənlərin, sevənlərin**
**çoxluğu isə uğur demək**
**Uğurlara sevinənlər,**
**varlığımızı sevənlər**
**Nə yaxşı ki, varsız...**

Bəli, Aygün xanım, nə yaxşı ki, siz varsınız, varlığınız Azərbaycan mədəniyyətinə, incəsənətinə, musiqi sənətinə bir tanrı bəxşidir".

Bəzən meşə rapsodiyalarını, titrək qızılı payız yarpaqlarının bəndəmindən üzülməsini, bəzənsə nəhəng dağ şəlaləsini, laciverd Xəzərin qırçın ləpələrini, coşğun dalğalarını xatırladır mahnılarınız.

Bu musiqilər yalnız insanı və vətəni sevməyə səsləyir. "Məktəb illəri"ndən boylanan, "Tut ağacı"ndan güc alan, "Bakı haqqında nağıl"lardan, "Bayatılar"ımızdan şirə çəkən, "Azərbaycan", "Ey vətən", - deyə haray salan gül çələnginə bənzədirəm yaradıcılığınızı. Sanki "Qələbə çal"dın əsərlərinin gücüylə:

**Azərbaycan, gözlərimin qarası,**
**Azərbaycan, ürəyimin parası,**
**Azərbaycan, anaların anası,**
**Nə deyim ki,**
**layiq olsun vəsfinə?!**

**Aygün xanım, elə mən də əsərlərinizin vəsfinə söz tapmıram. Halal olsun və uğurlar yar olsun sizə!**

*Mirvari Rəhimzadə,*
*əməkdar jurnalist*

# İtaliyanlar Azərbaycanın şokolad fabrikinə maraq göstərirlər

**07 dekabr 2015-ci tarixində Neapol-Bakı Assosiasiyasının prezidenti Ciuzeppe Caniglianın başçılıq etdiyi iş adamlarından ibarət nümayəndə heyyəti Ulduz Şokolad fabrikində işgüzar səfərdə olub.**

"Veysəloğlu" şirkətindən verilən məlumata görə, səfər çərşivəsində italiyalı qonaqlar fabrikin istehsal sahələri, anbar və labaratoriya ilə yaxından tanış olublar. Burada şokoladın hazırlanma texnologiyasından tutmuş, onun qablaşdırılmasınadək bütün istehsal prosesləri qonaqlara izahlı şəkildə göstərilib.

Görüşdə müəssisənin direktoru Elnur Allahverdiyev müasir texnologiyalarla təchiz edilən Ulduz şokolad fabrikinin istehsal etdiyi məhsullardan və ümumilikdə fabrikin istehsal gücündən danışıb. Görüş zamanı qonaqlara həmçinin bildirilib ki, istehsal prosesində keyfiyyətə daim önəm verən müəssisə rəhbərliyi bunun üçün Almaniya, Belçika, İtaliya və bir sıra qabaqcıl Avropa ölkələrinin tanınmış şokolad istehsalçılarının fəaliyyət mexanizmini öyrənmiş və fabrikdə yeni müasir avadanlıqlar quraşdırılmışdır.




Eyni zamanda, bildirilib ki, fabrik olaraq əsas məqsəd yerli və xarici bazara beynəlxalq standartlara cavab verən yüksək keyfiyyətli və geniş çeşidli məhsullar təqdim etməkdir. Ümumilikdə 20-dən artıq ölkəyə hazır məhsul ixrac olunduğunu vurğulayan qurum rəsmisi həmçinin Ulduz fabrikinin müxtəlif keyfiyyət və beynəlxalq sertifikatlar alması, o cümlədən Rusiya, Türkiyə, Almaniya, Hollandiya və BƏƏ-də keçirilən beynəlxalq sərgilərdə uğurla təmsil olunaraq, müxtəlif ölkələrin müvafiq qurumları ilə tərəfdaşlıq müqavilələri imzalaması barədə də qonaqlara məlumat verib.

Görüşdən məmnun qalan qonaqlar, o cümlədən Assosiasiyanın vitse-prezidenti Elnur Camalxanov italyalı iş adamlarının ölkəmizə investisiya yatırımında, həmçinin Azərbaycandan İtaliyaya yerli məhsulların ixracatında maraqlı olduqlarını və Ulduz şokolad fabrikinin müasir texnoloji avadanlıqlar ilə təchiz olunmuş istehsalından və məhsullarının keyfiyyətindən razı qaldıqlarınl ifadə etmişdir.

Qeyd edək ki, Neapol-Bakı Assosiasiyası Azərbaycanla İtaliya arasında mövcud olan dostluq, ticarət və mədəniyyət əlaqələrini daha da inkişaf etdirmək məqsədilə fəaliyyət göstərən təşkilatdır. Baş qərargahı İtaliyanın Neapol şəhərində yerləşən Assosiasiya 2014-cü ildə yaradılmışdır.



# Hər gün 660 azərbaycanlı İstanbula səfər edir

İstanbul Mədəniyyət və Turizm İdarəsinin məlumatına görə, 2015-ci ilin yanvar-oktyabr ayları ərzində Azərbaycandan İstanbula 197 min 942 nəfər səfər edib. Bu, hər gün orta hesabla 660 nəfər azərbaycanlının İstanbula səfər etməsi deməkdir.

Bu ilin 10 ayı ərzində İstanbula dünyanın dörd bir tərəfindən 10 milyon 744 min 448 turist səfər edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 6% çoxdur. Şəhərə gələn turistlərin əksəriyyətini Almaniyadan gələnlər təşkil edib.

Azərbaycanlılar şəhərə gələn əcnəbilərin 1,8 faizni təşkil edib.

# Azərbaycanın reytinqini təsdiqlədi

"Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycanın dövlət istiqrazlarının reytinqini "Baa3" səviyyəsində saxlayıb.

Bu barədə "Moody's"in yaydığı məlumatda qeyd edilir.

Proqnoz "stabil" olaraq qalır.

Agentlik istiqrazların "Baa3" səviyyəsində, "stabil" reytinqə malik olmasının üç faktora əsaslandığını qeyd edib: "Dövlət Neft Fondunun iri aktivləri hesabına Azərbaycan fiskal möhkəmlik əldə edib. Ölkənin fiskal dayanıqlılığı və işsizliyin aşağı səviyyədə olması neftin qiymətinin aşağı düşməsinin iqtisadiyyata olan mənfi təsirini yumşaltmağa yardımçı olacaq".

Agentlik hesab edir ki, 2016-cı ildə büdcə defisiti ÜDM-in 5,5%-ni təşkil edəcək.

**ELAN**

**"Çartis Azərbaycan" Sığorta Şirkəti ASC-nın adı "Qala Sığorta" Açıq Səhmdar Cəmiyyətinə dəyişdirmişdir.**

**ETİBARSIZDIR**

**29 yanvar 1988-ci il tarixli Abşeron rayon XDC İcrayyə Komitəsinin 08/08 qərarı əsasında Əmirov Rauf Günəş oğlunun adına Abşeron rayonu Yeni Bakı Broyler fabriki 6 unvanına verilmiş torpaq sahəsinin qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsiz sayılsın.**

Təsisçi:
**akademik Ziyad SƏMƏDZADƏ**
Baş redaktor: **Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
***Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Ədalət Muradov, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Cahangir Qocayev.***

Kompyuter mərkəzinin direktoru:
**Oqtay ORUCLU**
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566-09-60**
**Ümumi şöbə: 514-14-27** *(fax)*
**Mühasibatlıq: 566-63-08**

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
**"İQTİSADİYYAT"** qəzetinin kompyuter mərkəzində yığılmış və səhifələnmiş, **"Zaman-Azər" MMC** firmasının mətbəəsində çap edilmişdir.
**Lisenziya: 022201** **İndeks: 0355 Tiraj: 3400**